**UDC:** 323.
**LBC:** 6.3(4\8)
**MJ №** 220
10.33864/2617-751X.2024.v7.i3.29-40

# Complete Restoration of the Sovereignty of the Republic of Azerbaijan As a Result of Anti-Terrorist Events on September 19-20, 2023

**Irada Nuriyeva***

**Abstract.** The international community's indifferent and double standard approach to resolving the Nagorno-Karabakh issue for 30 years forced Azerbaijan to restore its territorial integrity through military means and political negotiations on the battlefield during the Second Karabakh War, from September 27 to November 10, 2020. Although the 44-day Patriotic War ended with the victory of the Azerbaijani army under the leadership of the President of the Republic and Victorious Supreme Commander-in-Chief Ilham Aliyev, armed clashes occasionally occurred along the borders of Azerbaijan and Armenia. On September 19-20, 2023, as a result of successful localized anti-terrorism measures carried out by the Armed Forces of the Republic of Azerbaijan, the sovereignty of the Republic of Azerbaijan was fully restored. On October 15, President Ilham Aliyev raised the Flag of Azerbaijan in Agdara, Askeran, Khojavend, Khojaly, and Khankendi. On December 21, 2023, as part of the 1/8 finals of the Azerbaijan Cup, the football teams "Garabagh" from Agdam and "MOIK" from Baku met for the first time at the stadium in the Khankendi region, which had been liberated from occupation. The unity of the Karabakh-Army-People is the main source of our Victory.

**Keywords:** 44-day Patriotic War, local anti-terrorist measures, sovereignty of the Republic of Azerbaijan, Khankendi, "Karabakh" and "MOIK" football teams.

---

* Doctor of Political sciences, professor,
Azerbaijan State Oil and Industry University; Baku, Azerbaijan
E-mail: iradanuri@gmail.com
https://orcid.org/0000-0002-5309-0009

**To cite this article:** Nuriyeva, I. [2024]. Complete Restoration of the Sovereignty of the Republic of Azerbaijan As a Result of Anti-Terrorist Events on September 19-20, 2023. *"Metafizika" journal, 7*(3), pp.29-40.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.29-40

**Article history:**
*Received: 20.01.2024*
*Accepted: 29.02.2024*

**УДК:** 323.
**ББК:** 6.3(4\8)
**MJ №** 220
10.33864/2617-751X.2024.v7.i3.29-40

# Полное восстановление суверенитета Азербайджанской Республики в результате антитеррористических мероприятий в 19-20 сентября 2023 года

**Ирада Нуриева***

**Абстракт.** Безразличный и двойной стандартный подход международного сообщества к решению проблемы Нагорного Карабаха на протяжении 30 лет вынудил Азербайджан восстановить свою территориальную целостность военными средствами и политическими переговорами на поле боя во Второй Карабахской войне с 27 сентября до 10 ноября 2020 г.. Хотя 44-дневная Отечественная война завершилась победой азербайджанской армии под руководством президента республики, Победоносного Верховного главнокомандующего Ильхама Алиева, на границах Азербайджана и Армении время от времени происходили вооруженные столкновения. 19-20 сентября 2023 года в результате успешных локальных антитеррористических мероприятий, проведенных Вооруженными Силами Азербайджанской Республики, суверенитет Азербайджанской Республики был полностью восстановлен. 15 октября Президент Республики Ильхам Алиев поднял Флаг Азербайджана в Агдаре, Аскеране, Ходжавенде, Ходжалы и Ханкенди. 21 декабря 2023 года в рамках 1/8 финала Кубка Азербайджана футбольные команды «Карабах» из Агдама и «МОИК» из Баку впервые встретились на стадионе Ханкендинского района, освобожденного от оккупации. Единство Карабаха-Армии-Народа - главный источник нашей Победы.

**Ключевые слова:** 44-дневная Отечественная война, локальные антитеррористические меры, суверенитет Азербайджанской Республики, Ханкенди, футбольные команды «Карабах» и «МОИК»

---

* Доктор политических наук, профессор,
Азербайджанский государственный университет нефти и промышленности; Баку, Азербайджан
E-mail: iradanuri@gmail.com
https://orcid.org/0000-0002-5309-0009

**Цитировать статью:** Нуриева, И. [2024] 31 марта геноцид, совершенный «Угнеженным Армянским Народом» против азербайджанцев на пути реализации мечты о «Великой Армении». *Журнал «Metafizika», 7*(3), с.29-40.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.29-40

**История статьи:**
*Статья поступила в редакцию: 20.01.2024*
*Отправлена на доработку: 12.02.2024*
*Принята для печати: 29.02.2024*

**UOT:** 323.
**KBT:** 6.3(4\8)
**MJ №** 220
10.33864/2617-751X.2024.v7.i3.29-40

# 19-20 sentyabr 2023-cü il tarixli antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyinin tam bərpa olunması

**İradə Nuriyeva***

**Abstrakt.** Beynəlxalq birliyin Dağlıq Qarabağ probleminin həllinə 30 il ərzində biganə və ikili standart mövqeyi ilə yanaşması Azərbaycanı 2020-ci il sentyabrın 27-dən 10 noyabradək İkinci Qarabağ müharibəsində döyüş meydanında hərbi yola, siyasi müstəvidə danışıqlar yolu ilə ərazi bütövlüyünü bərpa etməyə məcbur etdi. 44 günlük Vətən Müharibəsi Respublika Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qələbəsi ilə başa çatsa da, Azərbaycan və Ermənistan sərhədlərində vaxtaşırı silahlı toqquşmalar baş verirdi. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən həyata keçirilən uğurlu lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa olundu. Oktyabrın 15-də Respublika Prezidenti İlham Əliyev Azərbaycan Bayrağını Ağdərə, Əsgəran, Xocavənd, Xocalı və Xankəndində qaldırdı. 21 dekabr 2023-cü il tarixində Azərbaycan kubokunun 1/8 final mərhələsi çərçivəsində işğaldan azad edilmiş Xankəndi rayonunun stadionunda Ağdamın “Qarabağ” və Bakının *“MOİK”* futbol komandaları ilk dəfə qarşılaşdılar. Qarabağ-Ordu-Xalq birliyi Zəfərimizin əsas mənbəyidir.

**Açar sözlər:** 44 günlük Vətən Müharibəsi, lokal antiterror tədbirləri, Azərbaycan Respublikasının suverenliyi, Xankəndi, “Qarabağ” və “MOİK” futbol komandaları

* Siyasi elmlər üzrə elmlər doktoru, professor,
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti; Bakı, Azərbaycan
E-mail: iradanuri@gmail.com
https://orcid.org/0000-0002-5309-0009

**Məqaləyə istinad:** Nuriyeva, İ. [2024] “Böyük Ermənistan” xülyasının reallaşdırılması yolunda “məzlum erməni xalqı”nın azərbaycanlılara qarşı törətdiyi 31 mart soyqırımı. *“Metafizika” jurnalı, 7*(3), səh.29-40.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.29-40

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 20.01.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 12.02.2024*
*Çapa qəbul edilmişdir: 29.02.2024*

## 1.Giriş

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkənin qarşısında duran mühüm vəzifələrdən 30 illik bir müddət idi ki, Azərbaycan ərazisinin 20%-nə nəzarətin itirilməsi ilə üzləşmişdir, çünki Azərbaycanın Dağlıq Qarabağ və 7 qonşu rayonu Rusiyanın dəstəyi ilə Ermənistan və Dağlıq Qarabağın silahlı erməni dəstələri tərəfindən işğal edilmişdir. Azərbaycan rəhbərliyi beynəlxalq normalara və dövlətdaxili qanunvericiliyə uyğun yetərli səbəbləri olmasına baxmayaraq, Dağlıq Qarabağ problemini hərbi yolla həll etməyə tələsmirdi. Lakin, bu münaqişənin həlli məsələsinə beynəlxalq birliyin laqeyd və ikili standartlardan yanaşması Azərbaycanı 2020-ci il 27 sentyabr-10 noyabr tarixlərində İkinci Qarabağ müharibəsində döyüş meydanında hərb yolu ilə, siyasi müstəvidə danışıqlar yolu ilə öz ərazi bütövlüyünün bərpasına məcbur etdi. Azərbaycan Prezidentinin dediyi kimi:

*"... biz qələbə çaldıq, həm masada, həm də döyüş meydanında"* [17, s. 32].

## 2.Azərbaycan ərazisində yerləşən erməni separatçı-terrorçu qüvvələrinin törətdikləri hərbi təxribatlar və terror hadisələri

44 günlük Vətən Müharibəsi Respublika Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qələbəsi ilə başa çatsa da, Azərbaycan və Ermənistan sərhədlərində vaxtaşırı silahlı toqquşmalar baş verirdi. İlk silahlı toqquşmalar 2021-ci ilin noyabrında baş verdi. 2022-ci ilin sentyabrında sərhəddə baş verən silahlı münaqişə hər iki tərəfdən 300-dən çox insanın ölümünə səbəb oldu. 2023-cü ildə müşahidə olunan silahlı toqquşmalar əvvəlcə mart ayında Şuşa istiqamətində, daha sonra aprel-may aylarında sərhəddə baş vermişdir. 10 noyabr 2020-ci il tarixində imzalanan üçtərəfli bəyanata zidd olaraq Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı birləşmələri üçün Ermənistandan canlı qüvvə, silah-sursat, mina və digər hərbi sursat və texnikanın daşınmasının qarşısının alınması məqsədilə, 2023-cü il aprelin 22-də isə Azərbaycanla sərhəddə Laçın-Xankəndi yolunun girişində Ermənistan tərəfindən birtərəfli nəzarət buraxılış məntəqəsinin yaradılmasına cavab olaraq 2023-cü il aprelin 23-də saat 12:00-da Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycanın suveren ərazilərində, Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında "Laçın" nəzarət buraxılış məntəqəsi yaradıldı [1].

Ermənistan silahlı qüvvələrinin növbəti dəfə Azərbaycan hava məkanından uçan sərnişin təyyarələrinin, məsələn, sentyabrın 18-də Tbilisi-Bakı marşrutu üzrə uçan "Azərbaycan Hava Yolları"na məxsus E-190 sərnişin təyyarəsinin GPS naviqasiya sistemlərinə qarşı radiomaneələr istifadə etmə səbəbindən saat 20:28-dən 20:34-dək GPS naviqasiya sistemlərində fasilə yaranmışdır [6]. Azərbaycan Müdafiə Nazirliyindən bildirilmişdir ki, sentyabrın 18-də saat 23:50 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti

yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı birləşmələrinin üzvləri Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərini atəşə tutmuşdular [4].

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən verilən məlumata görə, sentyabrın 19-da saat 01:00 radələrində Füzuli rayonu ərazisində baş vermiş ağır yol-nəqliyyat hadisəsi zamanı avtomobilin aşması nəticəsində DİN-in 3 polis əməkdaşı hadisə yerində həyatını itirib, 6 polis əməkdaşı isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır [2]. Sentyabrın 19-da saat 02:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Krasnoselo bölgəsinin Cil qəsəbəsi istiqamətində yerləşən mövqelərindən Gədəbəy rayonunun Novoivanovo qəsəbəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini bir neçə dəfə atəşə tutmuşdular [5].

Növbəti rəsmi məlumata görə, sentyabrın 19-da saat 04:00 radələrində Xocavənd rayonunda minik avtomobilinin aşması nəticəsində sürücü və sərnişin hadisə yerində həyatını itirmişdir [3]. Sentyabrın 19-da içərisində Daxili İşlər Nazirliyinin polis əməkdaşlarının olduğu “KamAZ” markalı avtomobil Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonu ərazisində, 58-ci km-də Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) əməkdaşlarının ölümü ilə nəticələnən terror hadisəsi baş verdiyi yerə doğru hərəkət edən zaman səhər saat 04:30 radələrində Xocavənd rayonunun Taqaverd kəndi yaxınlığında yeni tikilmiş tunel istiqamətində sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qeyri-qanuni erməni silahlı birləşmələrinin diversiya qrupunun yerləşdirdiyi minaya düşmüşdür [4]. Sentyabrın 19-da saat 11:45 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Ağdam rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması nəticəsində ordumuzun iki əsgəri yaralanmışdır [7].

## 3.Azərbaycan Ordusunun Qarabağ bölgəsində keçirdiyi lokal xarakterli antiterror tədbirləri və onun nəticələri

Azərbaycan Müdafiə Nazirliyi sentyabrın 19-da saat 13:00-da Azərbaycanın Konstitusiya quruluşunu bərpa etmək məqsədi ilə Qarabağda antiterror tədbirlərinə başlandığı barədə rəsmi bəyanat yaydı. Bəyanatda qeyd olunur ki, “Azərbaycan Müdafiə Nazirliyi tərəfindən 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyannamənin müddəalarına zidd olaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsində mövcudluğunu davam etdirməsi regional sülhə ciddi təhlükədir” [6]. Eyni zamanda bildirilmişdir ki, Ağdam rayonu istiqamətində yerləşən mövqelərimiz artilleriya qurğularından atəşə tutulmuşdur.

Gərgin döyüşlərin davam etdiyi saatlarda Azərbaycan Müdafiə Nazirliyi bəyanat yayaraq mülki əhalinin hədəf alınmadığını və dəqiq silahlardan istifadə etməklə yalnız leğitim hərbi hədəflərin məhv edildiyini qeyd edib [6]. Həmin gün keçirilən brifinqdə Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Eyvazov bildirib ki, Azərbaycan Ordusunun hərbi əməliyyatlardan əvvəlki mövqelərinin son bir neçə ayda atəşə tutulması ilə bağlı Rusiya Sülhməramlı Kontingentinin Komandanlığı və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi məlumatlandırılmışdır [8]. Brifinqdə döyüş əməliyyatlarının ilk günündə Ermənistan silahlı qüvvələrinin 60-dan çox döyüş mövqeyinin nəzarətə götürüldüyü, 90-dan çox döyüş maşını, artilleriya qurğusu, minaatan və digər hərbi texnikanın zərərsizləşdirilməsi də bildirilmişdir [9].

Sentyabrın 20-də növbəti dəfə səhər saatlarında Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Eyvazov keçirdiyi brifinqdə çıxış edərək, Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin bölmələrinə məxsus 7 hərbi nəqliyyat vasitəsi, 4 minaatan, 2 piyada döyüş maşını (PDM) və xeyli sayda silah-sursatın qənimət kimi götürüldüyü haqda məlumat verdi [11]. Azərbaycan bir daha Ermənistan silahlı qüvvələrinin bölmələrini silahı yerə qoymağa və təslim olmağa çağırdı. Hərbi əməliyyatların aparıldığı bölgədə Azərbaycan tərəfindən erməni dilində məlumat vərəqələri paylanmış, səsgücləndiricilər vasitəsilə həm silahlılara, həm də mülki əhaliyə müraciətlər edilmişdir [10]. Anar Eyvazov onu da bildirdi ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin yerləşdiyi 90-dan çox döyüş mövqeyinə, eləcə də bir neçə strateji əhəmiyyətli ərazilərə nəzarət edir [11].

Sentyabrın 20-də saat 13:00-da Azərbaycan Müdafiə Nazirliyi hərbi əməliyyatların dayandırılması ilə bağlı məlumat yaydı. Məlumatda bildirilirdi ki, Qarabağın erməni əhalisinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciəti nəzərə alınaraq, 2023-cü il sentyabrın 20-də saat 13:00-da müəyyən edilmiş şərtlər əsasında antiterror əməliyyatlarının dayandırılması barədə razılıq əldə olunub. Şərtlərə görə, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsində yerləşən bölmələri, qeyri-qanuni erməni silahlı birləşmələri silahı yerə qoymalı, döyüş mövqelərini və hərbi postları tərk etməli, Ermənistan silahlı qüvvələrinin bölmələri isə Azərbaycanın ərazisini tərk etməli, qeyri-qanuni erməni silahlı dəstələri buraxılmalı, paralel olaraq bütün silah-sursat və ağır texnika təhvil verilməli və bütün bu proseslərin Rusiya Sülhməramlı Kontingenti ilə əlaqələndirilərək aparılması təmin edilməlidir [11].

Sentyabrın 20-də Rusiya Federasiyası Müdafiə Nazirliyi Ağdərə rayonunun Canyataq kəndi istiqamətində Rusiya sülhməramlı kontingentinə məxsus

“UAZ Patriot” markalı avtomobilin atəşə tutulması nəticəsində sülhməramlı qüvvələrin həlak olması barədə məlumat yaymışdır. Azərbaycan Müdafiə Nazirliyi, o cümlədən Respublika Prezidenti İlham Əliyev Rusiya sülhməramlı kontingentinin 5 hərbçisinin Qarabağda həlak olması ilə əlaqədar üzrxahlıq ifadə etmiş və dərin hüznlə başsağlığı vermişdir. Hadisəni törədən şəxslər barəsində hərtərəfli araşdırma aparılacağı və günahkarların müvafiq cəzalar alacaqları vurğulanmışdır. Azərbaycan Prezidenti həm də həlak olanların ailələrinə maddi yardım göstərməyə hazır olduğunu bəyan etmişdir [12].

Antiterror tədbirləri zamanı Müdafiə Nazirliyinin 180 hərbçisi həlak olmuşdur [13]. Həmçinin hərbi əməliyyatlar zamanı Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 12 hərbi qulluqçusu şəhid olmuşdur [14]. Bildirilmişdir ki, 11 nəfərin şəxsiyyəti müayinələrdən sonra müəyyənləşəcək. Səhiyyə Nazirliyi antiterror əməliyyatları zamanı ümumilikdə 511 hərbçinin yaralandığını bildirib [15]. Allah Şəhidlərimizə rəhmət eləsin!

2023-cü il 19-20 sentyabr tarixlərində Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən həyata keçirilən uğurlu lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa olundu [18].

## 4.Sosial, humanitar və iqtisadi məsələlərin həlli məqsədilə keçirilən görüşlər

Sentyabrın 25, 29 tarixlərində Yevlaxda, sentyabrın 25-də Xocalıda Qarabağın erməni əhalisinin nümayəndələri ilə keçirilən görüşlərdə humanitar yardımın göstərilməsi, yanacaq və enerji təchizatının qısa müddətdə bərpası istiqamətində addımların atılması razılaşdırıldı. Sosial, humanitar və iqtisadi məsələlərin həlli məqsədilə Azərbaycan Respublikası Baş Nazirinin müavini Şahin Mustafayevin rəhbərliyi ilə işçi qrupunun üzvlərinin cari fəaliyyət istiqamətlərini müəyyən etmək üçün ərazidə, o cümlədən Xankəndi şəhərində səhiyyə və digər fəaliyyətlərlə məşğul olan aidiyyəti nümayəndələrlə görüşünün keçirilməsinə və birgə işçi qrupunun yaradılmasına dair razılıq əldə edildi. Qarabağın erməni əhalisinin reinteqrasiyası və Azərbaycanın təqdim etdiyi reinteqrasiya planı ətraflı müzakirə olundu. Erməni əhalisinin nümayəndələri humanitar yardımın göndərilməsinə, yanacaq və ərzaq ehtiyaclarının ödənilməsinə görə Azərbaycan tərəfinə təşəkkür etdilər [16].

## 5.Nəticə

Sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az - 23 saat 43 dəqiqə çəkdi. Peşəkarlıq və qəhrəmanlıq nümayiş etdirən Azərbaycan Ordusu qısa müddətdə bütün strateji məntəqələrdən keçərək bu əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. O, nəinki təslim oldu, hətta 30 il əvvəl torpağımızda yaratdıqları qondarma

rejim də devrildi. 2023-cü il noyabr ayının 8-də Respublika Prezidenti İlham Əliyev Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr edilmiş hərbi paradda çıxışı zamanı demişdir: "Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir və bunun səbəbkarları bu gün, bax, bu meydanda dayanan bizim igidlərimizdir və on minlərlə Azərbaycan hərbçiləridir. Onların qanı-canı bahasına biz bu Qələbəni əldə etmişdik. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün [19]. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır" [19].

21 dekabr 2023-cü il tarixində Azərbaycan kubokunun 1/8 final mərhələsi çərçivəsində işğaldan azad edilmiş Xankəndi rayonunun stadionunda Ağdamın "Qarabağ" və Bakının "MOİK" futbol komandaları ilk dəfə qarşılaşdılar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oyunu izləmək üçün stadiona gəldilər. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Stadionda oyundan əvvəl Prezident İlham Əliyev çıxış edərək dedi: "İlk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. Xankəndi qədim Azərbaycan diyarıdır... Bugünkü oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir! Bugünkü oyunda "Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir. Əziz dostlar, dörd il bundan əvvəl bu stadionda bəziləri "Qarabağ Ermənistandır və nöqtə" demişdilər. Biz onlara sübut etdik ki, Qarabağ Azərbaycandır!" [20].

## ƏDƏBİYYAT

1. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). (2023, September 20). Füzuli rayonunda ağır yol-nəqliyyat hadisəsi baş verib, 3 polis həyatını itirib. *AZƏRTAC*. Retrieved September 20, 2023, from https://www.azertag.az
2. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). (2023, September 20). Xocavənddə avtomobil minaya düşüb, sürücü və sərnişin

ölüb. *AZƏRTAC*. Retrieved September 20, 2023, from https://www.azertag.az

**3.** Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). (2023, September 20). Ordumuzun Ağdam istiqamətində mövqeləri atəşə tutulub, cavab tədbirləri görülüb. *AZƏRTAC*. Retrieved September 20, 2023, from https://www.azertag.az

**4.** Azərbaycan Dövlət İnformasiya Agentliyi. (2023, September 20). Müdafiə Nazirliyi: Gədəbəy istiqamətində mövqelərimiz atəşə tutulub. *AZƏRTAC*. Retrieved September 20, 2023, from https://www.azertag.az

**5.** Azərbaycanın Müdafiə Nazirliyinin rəsmi internet səhifəsi. (2023, September 20). Müdafiə Nazirliyinin məlumatı. *MOD*. Retrieved from https://www.mod.gov.az

**6.** Azərbaycanın Müdafiə Nazirliyinin rəsmi internet səhifəsi. (2023, September 20). Ermənistan silahlı qüvvələrinin birləşmələrinin təxribatı nəticəsində 2 hərbi qulluqçumuz yaralanıb. *MOD*. Retrieved from https://www.mod.gov.az

**7.** Eyvazov, A. (2023, September 19). Ermənistan silahlı qüvvələrinin uzunmüddətli atəş nöqtələri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır. *AZƏRTAC*. Retrieved from https://azertag.az/xeber/anar_eyvazov_ermenistan_silahli_quvvelerinin_uzunmuddetli_ates_noqteleri_yuksek_deqiqlikli_silahlarin_tetbiqi_ile_siradan_chixarilir_video-2753752

**8.** Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). (2023, September 20). Müdafiə Nazirliyi: Ermənistan silahlı qüvvələrinin 60-dan çox döyüş mövqeyi Ordumuzun nəzarətindədir. *AZƏRTAC*. Retrieved from https://www.azertag.az

**9.** Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). (2023, September 20). Məlumat vərəqələri antiterror tədbirlərinin aparıldığı ərazidə paylanılır. *AZƏRTAC*. Retrieved from https://www.azertag.az

**10.** Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). (2023, September 20). Anar Eyvazov: Antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub. *AZƏRTAC*. Retrieved from https://www.azertag.az

**11.** Azərbaycan Prezidentinin rəsmi internet səhifəsi. (2023, September 20). İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. *President.az*. Retrieved from https://www.president.az

**12.** Azərbaycanın Müdafiə Nazirliyinin rəsmi internet səhifəsi. (2023, September 20). Antiterror tədbirlərində şəhid olmuş hərbi qulluqçuların siyahısı (PDF). *MOD*. Retrieved from https://www.mod.gov.az

**13.** Azərbaycanın Daxili İşlər Nazirliyinin rəsmi internet səhifəsi. (2023, September 20). 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ ərazisində aparılan lokal antiterror tədbirləri zamanı şəhid olmuş daxili işlər orqanları işçiləri. *MIA*. Retrieved from https://www.mia.gov.az
**14.** Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). (2023, September 20). Azərbaycan Prezidentinin Administrasiyasının açıqlaması. *AZƏRTAC*. Retrieved from https://www.azertag.az
**15.** Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). (2023, September 22). Azərbaycan Prezidentinin Administrasiyasının məlumatı. *AZƏRTAC*. Retrieved from https://www.azertag.az
**16.** Modern.az İnformasiya Agentliyi. (2023, September 22). Xocalı görüşündə nələrdən danışıldı... - Razılıq əldə olunub. *Modern.az.* Retrieved from https://www.modern.az
**17.** Nuriyeva, İ. T. (2023). Ulu Öndər Heydər Əliyevin milli azlıqların hüquq və azadlıqlarının qorunmasına dair siyasəti və onun inkişaf istiqamətləri. (Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunur). *Metafizika jurnalı, 6(2),* s.19-37 Retrieved from https://metafizikajurnali.az/storage/images/site/files/Metafizika-22/Metafizika.Vol.6%2CNo.2%2CSerial.22%2Cpp.19-37.pdf
**18.** Nuriyeva, İ. T. (2024). *AZƏRBAYCAN TARİXİ (ən qədim dövrlərdən zəmanəmizədək).* Bakı, Elm və təhsil.Texniki Ali məktəblər üçün dərslik, 784 səh.
**19.** Prezidentin Xankəndidəki çıxışının TAM MƏTNİ. (2023, November 8). Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib. *Musavat.* Retrieved from https://musavat.com/mobile/news/prezidentin-xankendideki-cixisinin-tam-metni_1020240.html
**20.** Tarixi gün: Xankəndidə “Qarabağ”-MOİK oyunu. Prezident İlham Əliyev Xankəndi stadionunda çıxış edib. (2023, December 21). *AZƏRTAC.* Retrieved from https://azertag.az/xeber/tarixi_gun_xankendide_qarabag_moik_oyunu__prezident_ilham_eliyev_xankendi_stadionunda_chixis_edib__yenilenib_5-2859202

## REFERENCES

**1.** Azerbaijan State Information Agency (AZERTAC). (2023, September 20). A severe traffic accident occurred in Fuzuli district, 3 police officers died. *AZERTAC.* Retrieved September 20, 2023, from https://www.azertag.az (in Azerbaijani)
**2.** Azerbaijan State Information Agency (AZERTAC). (2023, September 20). A car hit a mine in Khojavend, the driver and passenger died.

*AZERTAC*. Retrieved September 20, 2023, from https://www.azertag.az (in Azerbaijani)

3. Azerbaijan State Information Agency (AZERTAC). (2023, September 20). Our positions in the direction of Agdam were shelled, countermeasures were taken. AZERTAC. Retrieved September 20, 2023, from https://www.azertag.az (in Azerbaijani)
4. Azerbaijan State Information Agency. (2023, September 20). Ministry of Defense: Our positions in the direction of Gadabay were shelled. *AZERTAC*. Retrieved September 20, 2023, from https://www.azertag.az (in Azerbaijani)
5. Official website of the Ministry of Defense of Azerbaijan. (2023, September 20). Information from the Ministry of Defense. *MOD*. Retrieved from https://www.mod.gov.az (in Azerbaijani)
6. Official website of the Ministry of Defense of Azerbaijan. (2023, September 20). As a result of the provocation of the units of the armed forces of Armenia, 2 of our military personnel were injured. *MOD*. Retrieved from https://www.mod.gov.az (in Azerbaijani)
7. Eyvazov, A. (2023, September 19). Long-term firing points of the Armenian armed forces are disabled with the application of high-precision weapons. *AZERTAC*. Retrieved from https://azertag.az/xeber/anar_eyvazov_ermenistan_silahli_quvvelerinin_uzunmuddetli_ates_noqteleri_yuksek_deqiqlikli_silahlarin_tetbiqi_ile_sıradan_chixarilir_video-2753752 (in Azerbaijani)
8. Azerbaijan State Information Agency (AZERTAC). (2023, September 20). Ministry of Defense: More than 60 combat positions of the Armenian armed forces are under the control of our Army. *AZERTAC*. Retrieved from https://www.azertag.az (in Azerbaijani)
9. Azerbaijan State Information Agency (AZERTAC). (2023, September 20). Information leaflets are distributed in the area where anti-terror measures are carried out. *AZERTAC*. Retrieved from https://www.azertag.az (in Azerbaijani)
10. Azerbaijan State Information Agency (AZERTAC). (2023, September 20). Anar Eyvazov: Agreement was reached on the suspension of anti-terror measures. *AZERTAC*. Retrieved from https://www.azertag.az (in Azerbaijani)
11. Official website of the President of Azerbaijan. (2023, September 20). A phone conversation was held between Ilham Aliyev and the President of the Russian Federation, Vladimir Putin. *President.az*. Retrieved from https://www.president.az (in Azerbaijani)

**12.** Official website of the Ministry of Defense of Azerbaijan. (2023, September 20). List of military personnel who died during anti-terror measures (PDF). *MOD*. Retrieved from https://www.mod.gov.az (in Azerbaijani)

**13.** Official website of the Ministry of Internal Affairs of Azerbaijan. (2023, September 20). Employees of internal affairs bodies who died during local anti-terror measures carried out in the Karabakh region on September 19-20, 2023. *MIA*. Retrieved from https://www.mia.gov.az (in Azerbaijani)

**14.** Azerbaijan State Information Agency (AZERTAC). (2023, September 20). Statement of the Administration of the President of Azerbaijan. *AZERTAC*. Retrieved from https://www.azertag.az (in Azerbaijani)

**15.** Azerbaijan State Information Agency (AZERTAC). (2023, September 22). Information of the Administration of the President of Azerbaijan. *AZERTAC*. Retrieved from https://www.azertag.az (in Azerbaijani)

**16.** Modern.az Information Agency. (2023, September 22). What was discussed at the Khojaly meeting... - Agreement was reached. *Modern.az*. Retrieved from https://www.modern.az (in Azerbaijani)

**17.** Nuriyeva, I. T. (2023). The policy of the Great Leader Heydar Aliyev on the protection of the rights and freedoms of national minorities and its development directions. (Dedicated to the 100th anniversary of the Great Leader Heydar Aliyev). *Metafizika Journal*, *6(2)*, 19-37. Retrieved from https://metafizikajurnali.az/storage/images/site/files/Metafizika-22/Metafizika.Vol.6%2CNo.2%2CSerial.22%2Cpp.19-37.pdf (in Azerbaijani)

**18.** Nuriyeva, I. T. (2024). *History of Azerbaijan (from ancient times to the present)*. Baku, Elm və Təhsil. Textbook for technical higher schools, 784 pages. (in Azerbaijani)

**19.** Full text of the President's speech in Khankendi. (2023, November 8). On November 8, a military parade dedicated to the third anniversary of the Victory in the Patriotic War was held in the city of Khankendi. *Musavat*. Retrieved from https://musavat.com/mobile/news/prezidentin-xankendideki-cixisinin-tam-metni_1020240.html (in Azerbaijani)

**20.** Historic day: The "Qarabag" - MOIK game in Khankendi. President Ilham Aliyev delivered a speech at the Khankendi stadium. (2023, December 21). *AZERTAC*. Retrieved from https://azertag.az/xeber/tarixi_gun_xankendide_qarabag_moik_oyunu__prezident_ilham_eliyev_xankendi_stadionunda_chixis_edib__yenilenib_5-2859202(in Azerbaijani)